# Santur

## Bərpa edilmiş qədim musiqi aləti

Santurun son əsrlərdə Azərbaycan musiqisindəki rolu onun bərpasından sonra başlamışdır. Belə ki, alətin bərpasından əvvəl Quzey Azərbaycanda santur ifaçılarına təsadüf edilir, lakin tarixi və ədəbi mənbələrdə bu alət barədə bəzi məlumatlara rast gəlmək olur.



*Santur yatıq sazlar ailəsinə mənsubdur. Qanun, nüzhə və bu növ alətlərdən hesab edilir. Santurun bu alətlərdən başlıca fərqi onun iki yüngül ağac toxmaqla (mizrabla) çalınmasıdır. Ona görə də santur həm də zərb musiqi aləti sayılır. Əfsanəyə görə, Davud peyğəmbər bir sıra musiqi alətlərinin, o cümlədən santurun yaradıcısı olmuşdur. Santur haqqında R.Yektabəy yazır: "Bu çalğı aləti çox qədim olub, "Tövrat"da "psanterin" adlandırılır. Santur kəlməsi bunun başqa bir şəklidir".*

Qeyd etmək lazımdır ki, santur və bu növ musiqi alətlərinin tarixən bir çox xalqlara məxsusluğu danılmazdır. Onu bir xalqın yaradıcılığına şamil etmək düzgün sayıla bilməz.

Türkdilli xalqların musiqi mədəniyyətində bir termin bu gün də yaşamaqdadır - yatıq sazlar. Bu termin bir sıra santur tipli musiqi alətlərinin ilkin və ümumi adıdır. "Yatıq", "yatuğan" və başqa sözlər çalğı alətinin hamarlığına, quruluşuna işarə olaraq deyilmişdir.

Jetıgen qazaxların yatıq sazlarının ən tipik nümunəsidir. Qədim jetıgen yeddi simli idi. Simlərin altında xərək əvəzi qoyulmuş sümük aşıqlar (qoyun aşıqları) sağa və sola çəkilməklə səslərin dəqiq yerini təyin etmək mümkün olurdu.

Yatıq sazların ən qədim və sadə nümunələrinə Tuva və Xakas xalqlarında da təsadüf edilir.

Müasir dövrümüzdə yatıq sazların ən tipik nümunələrindən biri santur adlanır. Santur hazırda İranda yaşayan müxtəlif xalqların ən sevimli və çox yayılan alətidir. Alətin müxtəlif formalarına və quruluşlarına da bu ölkədə daha çox təsadüf edilir.

Məcid Kiyani "Həft dəstgahe musiqiye İran" əsərində qeyd edir ki, "İran milli çalğı aləti olan santur bu alətlərin ən qədimi, ən kamilidir". Müəllifin fikrincə santur Şərq alətidir və onun mövcudluğu 3000 ilə yaxın sayıla bilər.

Ella Zonis "Klassik fars musiqisi" (E.Zonisin kitabından gətirilən sitatları ingilis dilindən musiqişünas Fəttah Xalıqzadə tərcümə etmişdir.) əsərində K.Zaksın fikrinə əsaslanaraq göstərir ki, "Orta Şərq musiqi alətlərinin əksəriyyətinə zidd olaraq, sitranın (santurun) heç bir növü antik dövrə aid edilə bilməz". Müəllif hesab edir ki, santur ilk dəfə XI əsrin İran şairi Manuçöhr tərəfindən musiqi alətlərində çalan müxtəlif quş növlərinin təsvir edildiyi poemada meydana çıxmışdır. Alətin özü isə Səfiəddin Urməvinin "Kitab əl-ədvar" əsərinə qədər təsvir edilməmişdir. Əsərdə verilən şəkildə santur düzbucaqlı olub, nüzhə adlandırılmışdır.

Çalğı alətlərinin yaranma tarixini dəqiqləşdirmək, onların ixtiraçıları haqqında fikir söyləmək əksər hallarda çətinlik törədir. Bizə qədər gəlib çatmış bir neçə alət var ki, onların yaranma tarixi, müəllifləri barəsində qısaca da olsa, məlumat vermək olar. Belə çalğı alətlərindən biri də Şərqin böyük alimi Səfiəddin Urməvinin ixtira etdiyi nüzhə adlı çalğı alətidir. Bu alət orta əsrlərdə Azərbaycanda da məlum idi.

Nüzhə qeyd edildiyi kimi 81 simə malik idi və simləri üç-üç köklənərək, 27 müxtəlif tonlu səslər hasil edirdi. Araşdırmalardan belə nəticəyə gəlmək olar ki, nüzhə müxtəlif formalarda mövcud imiş. Elə bu səbəbdən də simlər müxtəlif sayda ola bilərdi.

İranın Tehran şəhərində Maddeyi Mədəniyyət Sərgi salonunda və Moskvada M.İ.Qlinka adına Mərkəzi Dövlət Mədəniyyət Muzeyində saxlanılan alətlər arasında XIII-XIV əsrlərə aid bir neçə santur növü nümayiş etdirilir. Novqorod şəhərindən arxeoloji qazıntılar zamanı tapılmış və XVI-XVII əsrlərə aid edilən düzbucaqlı santur (qusli) bu alətin geniş bir ərazidə mövcud olmasını göstərir.

S.Abdullayevanın yazdığına görə santur yalnız XIX əsrdə Azərbaycanda mövcud olmuşdur. Onun digər araşdırmasında isə santurun Azərbaycan ərazisində XIX əsrin ikinci yarısından XX əsrin əvvəllərinə qədər mövcudluğu qeyd edilir.

Azərbaycan Tarixi Muzeyində nümayiş etdirilən santurun üst lövhəsində çox güman ki, alətin hazırlandığı vaxt 1887-ci il qeyd edilmişdir. Yəqin ki, o dövrdə alətin bir neçə nüsxəsi olmuşdur. Bu onunla izah oluna bilər ki, alətin üzərindəki hazırlanma vaxtı kiril rəqəmləri ilə yazılmışdır.

Tarixi dəlillərin azlığı santurun Azərbaycan ərazisində mövcudluğunun dəqiq izlənilməsini məhdudlaşdırır.

Görkəmli Azərbaycan şairi və mütəfəkkiri Abbas Səhhət özünün "Şair, şer pərisi və şəhərli" əsərində santur alətinin adını yəqin ki, təsadüfən çəkməmişdir. O, yazır: "Bu əsnada yaxındakı uca dağın təpəsində gözəl bir qız surətində nurani bir kölgə zahir olur. Əlindəki santur deyilən musiqi aləti ilə şairə xitabən:

Şer pərisi:
Şairim! Seyr elə ətrafı, təbiət nə gözəl,
Bax mənim hüsnümə, inşad elə bir dadlı qəzəl.

Kölgə şairə yaxınlaşaraq, əlindəki musiqi alətini təqdim edərək deyir:

Al, bu santurumu çal, gəldi bahar əyyamı,
Nəğmə əyyamı, mey əyyamı, xumar əyyamı.
Öp şirin ləblərimi, guşeyi-əbrulərimi,
Sırma köysulərimi, nərgisi-cadulərimi.

A.Səhhətin 1916-cı ildə qələmə aldığı bu şeri bizə əsas verir ki, əsrin əvvəllərində Azərbaycanda santurun yayılması fikrinə qoşulaq. Alətin sehrkar səsindən ruhlanan şair onu təsadüfən seçməmişdir.

Abdulla Şaiqin də əsərlərində ara-sıra santur alətinin adına, onun xoş avazlı səsinə müraciət olunur:

Çal, havalansın, santurum,
Çal ki, tellər oynasın!
Dinsin dərə, uçurum
Don ürəklər qaynasın.

1920-ci ildə Azərbaycanda bolşevik mədəniyyətinin gücləndiyi bir dövrdə onlarla mədəni-tarixi abidələr uçurulub dağıdıldı. Keçmişlə əlaqədar nə var idisə, hər şey demək olar ki, şübhə altına alındı. Çalğı alətlərinin şahı olan tarın çalınması qadağan olunanların sırasına düşdü. O cümlədən də xalq arasında ara-sıra təsadüf edilən bir sıra alətlərin unudulması sürətləndi. Məhz santur da beləcə unuduldu.

Azərbaycan dilçiliyində onomalogiyanın müxtəlif sahələri tədqiq olunsa da, ktematonimika - yəni musiqiyə aid xüsusi əşya adları hələ öyrənilməmişdir. Alimlərin fikrincə, ktematonimika termin qrupu dilçilikdə bir növ tədqiqatdan kənarda qalmışdır. Musiqiyə aid xüsusi əşya (çalğı alətləri nəzərdə tutulur) adlarının öyrənilməsi alətin adının hansı dilə mənsub olması, bilavasitə xalqımızın mədəni-tarixi irsində rolu, ifaçıları, çalğı üsulları, hazırlanması, repertuarı və başqa sahələrin üzə çıxarılmasına geniş imkan yaradır.

Hazırda elə çalğı alətləri vardır ki, onlara dünyanın çox yerində təsadüf etmək olar. Belə çalğı alətlərinin təsvirinə tarixi-mədəni abidələrdə, adlarına qədim kitablarda, özlərinə isə ara-sıra dünyanın müxtəlif muzeylərində rast gəlmək olar. Məhz haqqında söz açdığımız santur da belə musiqi alətlərindən biridir.

Şimali Azərbaycanda XX əsrin əvvəllərində yayılan santur İranda mövcud olan alətin eyni idi. Alətin İranda nə vaxtdan mövcudluğu isə bəlli deyildir.

Türk alimi və musiqişünası Rauf Yektabəy qeyd edir ki, "Türklərin santur deyə adlandırdıqları alət, qədimdən bütün Avropada bəlli olan və hələ Bohemiyada, Macarıstanda və bilavasitə Rumıniyada təsadüf edilən psalterion və ya tumpaniondan başqa bir şey deyildir".

Digər türk musiqişünası doktor Faruk Sumer isə yazır: "Monqollara məxsus digər bir çalğı da yatuqandır. Bu çalğının da farsların "semtur" dedikləri çalğı olduğu bildirilir". Gətirilən hər iki sitatdan aydınlaşır ki, santur İrandan gəlmə alətdir.

"Santur" sözünün əsli yunancadan olub, "psalterin" müqəddəs dini kitab - "Zəbur"dan yaranması güman edilir.

Musiqişünas Fuad Əzimli qeyd edir ki, ilkin deyilmiş şəkli olan "psanterin" fransızcadan "phsanterin" və ya "psanterin" çox güman ki, digər dillərə keçdikcə mənasını və deyiliş tərzini itirmişdir (I, 33). Belə ki, ərəb dilində "II" hərfinin olmamasına görə "santerin", "sintirin" sözləri adlanır. Sözün son hecasının atılması nəticəsində "santer", "sintir" adları yaranır. Bu söz fars dilində "santur" kimi formalaşmışdır. Türklər isə onu "santur" kimi qəbul etmişlər. Bizcə çalğı alətinin bu növünün "yatağan" adlandırılması daha məqbul olardı.

Qeyd edildiyi kimi, santur qədim alətdir və onlarla xalqın musiqi mədəniyyətində bəllidir. Elə bu səbəbdən də hazırda alətin müxtəlif quruluşuna, növlərinə və adlarına təsadüf edilir.

Əziz Şəbani araşdırmalarında santurun on növünün adını sadalayır: İran, Turk, Kəşmir, Çin, qusli (rus santuru), panteleon (fransız santuru), simbal (Balkan santuru) və s. (III, 1).

Ə.Şəbani alətləri əsasən coğrafi ərazilərə bölərək, bəzi xalqların adına çıxmasını o qədər də düzgün saymır. Belə ki, İran santuru adlanan alətə Özbəkistanda, Tacikistanda, Azərbaycanda, İzraildə və başqa coğrafi ərazilərdə də təsadüf edilir. Belə olan tərzdə alətin bütövlükdə İranın adına çıxılması nə dərəcədə düzgün olardı?



Rusların "qusli" adlandırdıqları alətin qanadabənzər, dəbilqəyə oxşar, düzbucaqlı və başqa formaları və növləri vardır. Həmin alət Belorusda, Moldavada "simbal", Maridə "kyusli", Çuvaşiyada "kyesli", Tatarıstanda "quslya", Estoniyada "kannel", "kokle", Litvada "kankle", Gürcüstanda "santuri", Özbəkistanda "çəng" və s. adlar daşıyır. Əlbəttə, bu adları İranda, Çində və Balkan ölkələrində yaşayan onlarla xalqların hesabına artırmaq olar.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, hazırda yayılan iki santur növü - doqquz və on iki xərəkli santurlar Azərbaycan türklərinin soykökünə çox yaxındır və bizim araşdırmalar əsasən bu alətlərin öyrənilməsinə yönəldilmişdir. Santurun bu növləri quruluşuna, çalğı tərzinə, səs düzümünə və başqa cəhətlərinə görə bir-birinə çox yaxındır.

Doqquzxərəkli santur deyildikdə nəzərimizdə İranda yayılan santur növü tutulur. Belə ki, qonşu İran xalqları ilə bizim müştərək musiqimiz, çalğı alətlərimiz olduğundan çox vaxt alətlərin adlarının əvvəlinə "Azərbaycan" və ya "İran" sözləri əlavə olunur, məsələn: İran tarı, Azərbaycan tarı, İran dəstgahları (muğamları), Azərbaycan muğamları və s. O cümlədən də santur da belə adlarla deyilə bilər. İranda, o cümlədən də Cənubi Azərbaycanda yayılmış santurun əsasən iki növü bəllidir. Bu santurlar bir-birindən əslində o qədər də fərqlənmirlər. Alətlər əsasən xərəklərin sayına, ölçülərinə və təbii olaraq səs sırasına görə fərqlənirlər.

Ən çox yayılmış doqquzxərəkli santurdur. Biz onu şərti olaraq diatonik santur adlandırırıq. Bu aləti çalğıdan əvvəl bu və ya başqa məqama kökləmək vacibdir.

Doqquzxərəkli santur dedikdə alətin yalnız bir tərəfinin xərəkləri nəzərdə tutulur. Əslində alətin 18 xərəyi (9+9) vardır.

Alətin digər növü onikixərəkli santurdur. Bu santur isə şərti olaraq xromatik növünə aid edilir. Bəzən bu növ santurlar arasında onbirxərəklisinə də təsadüf edilir.

İranda alətin iki həcmli həmnövlərinə də rast gəlinir. Santurun bu növü bəm santur adlanır.

Santurun xərəkləri əksər hallarda tək-tək, bəzi hallarda isə körpüvari olur. Körpüvari xərəklərin üzərindən bir neçə cüt - 6,8,12 sim keçir.

Osmanlı türkləri arasında hazırda iki növ santur mövcuddur: alafranqa və türk santurları.

Alətin alafranqa növü barəsində Rauf Yektabəy yazır ki, türk ifaçıları əslində alafranqa santurunun səs sırasını dəyişərək Şərq səs sisteminə uyğunlaşdırmışlar. Alafranqa santuru hazırda Avropada macar simbalı kimi tanınır. Türklərin bu alət üzərində etdiyi dəyişikliklər əsasən özünü iki cəhətcə büruzə verir:

1) simlərin sayı azaldılmış;
2) xərəklərin yeri dəyişdirilmişdir.

Alafranqa santurunun 105 simi vardır. Hər beş sim bir səs iqtidarındadır ki, bütövlükdə 21 səsi əhatə edir.

R.Yektabəyin mülahizəsinə görə santurun bu növünün İstanbulda yayılması 60 ildən artıq deyildir. Daha sonra o bildirir ki, Sultan Abdulməcidin səltənəti (1839-1860) dövründə Humayun - musiqiçi mənsəblərindən olan Hilmi bəy adlı ifaçı santuru Roma müsiqiçilərinin əlində görmüş, icrasını öyrənmiş, dəyişikliklər etmiş və həmnövlərindən aləti ayırmaq üçün ona alafranqa santuru adını vermişdir. Alafranqa, yəni Avropasayağı səs düzümünə malik olan alət, başqa sözlə fransız santuru kimi başa düşülə bilər.

R.Yektabəyin yazdığına görə türk santuru hazırda İstanbulda yaşayan Musəvi musiqiçiləri arasında yayılmaqdadır. Türk santurunun əksər simləri sarı metaldandır. Bu da onu başqa həmnövlərindən fərqləndirən başlıca əlamətdir.

İran və türk santurlarına yaxın alətlərdən biri də Kəşmir santurudur. Alət səs düzümünə, quruluşuna, xarici görkəminə görə İran və türk santurlarından az fərqlənir.

"Qədim musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi" elmi-tədqiqat laboratoriyasında santurun hər iki növü - doqquzxərəkli dianotik və onikixərəkli xromatik santurlar bərpa edilmişdir. Onikixərəkli santurun təkmilləşdirilmiş növü də hazırlanmışdır. Qeyd etmək lazımdır ki, onikixərəkli santur hazırda yalnız Azərbaycanda mövcuddur.

Doqquzxərəkli santur xalq musiqi nümunələrinin və muğamların ifası üçün nəzərdə tutulmuşdur. Onikixərəkli santurda isə peşəkar bəstəkarların əsərlərini səsləndirmək mümkündür.

Santur xarici görünüşcə trapesiyaşəkilli taxta qutuya oxşayır. Alət çərçivədən, üst və alt taxta qapaqlardan ibarətdir. Çərçivə dörd ağac hissələrdən (ön, arxa, sağ və sol) quraşdırılmışdır. Arxa hissənin ortasında iri oyuq açılır. Üst qapaq hissəsi taxta lövhədən qurulur və üzərində bəzəkli səs rezonatorları - səsliklər açılır. Alt lövhə isə bütöv ağac parçasından düzəldilir. Alt lövhənin içəri üzünə çubuq - yay yapışdırılır.

Üst qapaq uzununa istiqamətdə nisbətən maili yonulur. Bununla simlərin alətin üst taxtasına etdiyi təzyiq bir qədər azalır.

Alt və üst taxta qapaqlar arasında dörd ağac dayaq

yerləşdirilir. Çərçivənin arxa hissəsindəki oyuqdan xüsusi qurğu ilə dayaqların yerini dəyişməklə simlərin alətin dekasına etdiyi təzyiqi və əsas tembirini nizamlayırlar.

Sağ çərçivədə aşıqlar üçün xüsusi olaraq 72 (doqquzxərəkli santurda) və ya 96 (onikixərəkli santurda) kiçik oyuqlar açılır. Sol çərçivədə isə simlərin bənd yeri üçün eyni sayda kiçik metal şriftlər (mıxlar) vurulur.

Metaldan hazırlanmış aşıqların xaricdə qalan tərəfi yastı düzəldilir və simlərin keçirilməsi üçün çox kiçik dəliklər açılır.

Qutunun üst tərəfində sağ və sol kənarlarında yan xərəklər - aşırımlar bərkidilir. Onların üst hissəsində polad mil yerləşdirilir. Bu aşırımlar simlərin möhkəm oturmasını və yaxşı səslənməsini təmin edir.

Santurun sağ və sol tərəflərində, aşırımlardan 100-120 mm məsafədə xüsusi formada düzəldilmiş doqquz və ya on iki taxta üz xərəkləri yerləşdirilir. Onların üst tərəfində açılmış "nova", aşırımlarda olduğu kimi metal mis qoyulur. Xərəklər arasındakı məsafə eynidir və ifaçının istəyi ilə tənzimlənir. Çalınacaq əsərin məqamından asılı olaraq ifaçı tərəfindən xərəklər alətin sağına və soluna çəkilərək dörddə bir səslərin alınması üçün imkan yaranır.

Santurun simləri iki növə ayrılır: ağ və sarı simlər. Doqquzxərəkli santurda simlərin hərəsindən 36 ədəd bağlanır. Sağ xərəklər üzərindən ağ, sol xərəklər üzərindən isə sarı simlər keçir. Simlərin ümumi sayı 72-yə çatır. Onikixərəkli santurda isə simlərin hamısı ağdır və sayı 96-ya çatır. Alətin simləri adətən dörd-dörd qoşulur. Hər bir dörd sim ayrıca xərək üzərindən keçir.

Santur bir cüt xüsusi formalı çubuqla səsləndirilir. Onlara toxmaq da deyirlər. Çox vaxt çubuğun simlərə toxunan hissəsinə səslənmə kefiyyətini yaxşılaşdırmaq məqsədi ilə xüsusi məxmər parça da yapışdırırlar.

Santurun köklənməsi özünəməxsus şəkildə icra olunur. Alətin metal aşıqlarını burmaq üçün xüsusi məxmər parça da yapışdırırlar.

Santurun köklənməsi özünəməxsus şəkildə icra olunur. Alətin metal aşıqlarını burmaq üçün xüsusi açardan istifadə edilir. Açarın əl tutan hissəsi aşıq boşaldıqda onu yerinə oturtmaq üçün çəkic rolunu oynayır.

*Məcnun KƏRİMOV,*
*sənətşünaslıq namizədi,*
*Fuad ƏZİMLİ,*
*sənətşünaslıq namizədi*